# TƏZƏ İLDƏ

Təzə ildə təzə ömür,
Yaşamağa doğru gedək.
Nə istərsən əldə götür,
Hər bir kəsi təbrik edək.
Təzə ildə oynayan kim,
Sevgi ilə dolar qəlbim,
Ürəyimdə var sevgilim,
Ona böyük arzu edək.
Gülüşlər tutar hər yanı,
Gəl deyər, sevər insanı,
Sevgi bürüyər dünyanı.
Biz də ona ürək verək.
Badə süzün təzə ildə,
Bal dadacaq içiləndə,
Nə qalıbdır köhnə ildə.
Yeni ildə açsın çiçək.
Xudam verən ömür ilə.
Hər gününü gətir dilə,
Nə qalıbsa indən belə.
Gəl şirincə ömür sürək.
Sevgi verib, tap Şabanı,
De yaşasın bu dünyanı.
Qışdır, borandır hər yanı,
Gedib bura qar gətirək.

**Şaban ŞƏMKIRLI.**